**Təsdiq edirəm:**

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın sədri, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov

__________________

25.08.2022-ci il

**Dünya Bankı Qrupunun "Əlverişli Biznes Mühiti" layihəsinin "İşçi qüvvəsi" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair 2022-2023-cü illər üzrə Yol Xəritəsi**

| Sıra №-si | Alt-komponentlərin tələbləri | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər |
|---|---|---|---|---|---|
| **I. Əmək qanunvericiliyinin keyfiyyətinin yüksəldilməsi** | | | | | |
| **1.1. İşçilərin sosial müdafiəsi istiqamətində əmək qanunvericiliyinin təkmilləşdirilməsi** | | | | | |
| **1.1.1** | Əmək qanunvericiliyi sahəsində mütərəqqi beynəlxalq təcrübənin öyrənilməsi və qanunvericiliyə daxil edilməsi | 1. Əsas və əlavə iş yerlərinə uyğun olaraq, minimum əməkhaqqı anlayışının təkmilləşdirilməsi istiqamətində beynəlxalq təcrübənin öyrənilməsi və qanunvericiliyə dəyişikliklərin edilməsi ilə bağlı layihələrin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 01.04.2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | Fuad Heydərov, Orxan Hüseynzadə |
| | | 2. Əmək standartları ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi və beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində müvafiq standartların hazırlanması istiqamətində tədbirlərin görülməsi | 01.04.2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | Orxan Hüseynzadə, Fuad Heydərov |

| | | | | | |
|---|---|---|---|---|---|
| **1.1.2** | Əmək qanunvericiliyinə dəyişikliklərin edilməsi | 1. İşçilərin təşkilatlanma və kollektiv sövdələşmə hüququnu tənzimləyən normaların təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması və müvafiq layihələrin aidiyyəti üzrə təqdim olunması | 01.04.2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası | Fuad Heydərov, Orxan Hüseynzadə |
| | | 2. Təhlükəsiz və sağlam iş şəraiti, habelə ailə məzuniyyəti hüququ istiqamətində əmək qanunvericiliyinə dəyişiklik layihələrinin hazırlanması və aidiyyəti üzrə təqdim olunması | 01.04.2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | Fuad Heydərov, Orxan Hüseynzadə |
| | | 3. Əmək qanunvericiliyində iş yerində gender bərabərliyi prinsipini pozan müddəaların müəyyən edilməsi, onların dəyişdirilməsi ilə əlaqədar təkliflərin hazırlanması və müvafiq layihələrin aidiyyəti üzrə təqdim olunması | 01.04.2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | Fuad Heydərov, Orxan Hüseynzadə |
| **1.2. Məşğulluğa dair məhdudiyyətlərin aradan qaldırılması istiqamətində qanunvericilikdə dəyişikliklərin edilməsi** | | | | | |
| **1.2.1** | Sınaq müddəti, müddətli müqavilələrdən sui-istifadə hallarının qarşısının alınması, işçilərin əmək və sosial hüquqlarının təmin edilməsi, qadınların məşğulluğuna dair məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı qanunvericiliyə dəyişikliklərin edilməsi | 1. İşçilərin sınaq müddətinin tənzimlənməsi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə dair layihələrin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 01.04.2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | Fuad Heydərov, Orxan Hüseynzadə |
| | | 2. Müddətli müqavilələrdən sui-istifadə hallarının qarşısının alınması ilə bağlı qanunvericilikdə dəyişikliklərin edilməsinə dair layihələrin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 01.04.2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | Fuad Heydərov, Orxan Hüseynzadə |
| | | 3. İşçinin əmək və sosial hüquqları ilə bağlı təminatlarının və güzəştlərinin təmin edilməsi məqsədilə işə qəbul zamanı təqdim edilməli sənədlərə dair müddəaların əmək qanunvericiliyinə daxil edilməsini nəzərdə tutan layihələrin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 01.04.2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | Fuad Heydərov, Orxan Hüseynzadə |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 4. Qadınların gecə işlərində çalışmasını qadağan edən məhdudiyyətlərin aradan qaldırılması məqsədilə əmək qanunvericiliyinə dəyişikliklərin edilməsi ilə bağlı layihələrin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 01.04.2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | Fuad Heydərov, Orxan Hüseynzadə |
| **II. Əmək bazarı üzrə dövlət xidmətlərinin adekvatlığının təmin edilməsi** | | | | | |
| **2.1. İşçilərin sosial müdafiəsi sahəsində dövlət xidmətlərinin təkmilləşdirilməsi** | | | | | |
| **2.1.1** | İşçilərin sosial müdafiəsini gücləndirmək məqsədilə işsizlikdən sığorta və məcburi dövlət sosial sığorta sistemində təkmilləşdirmələrin həyata keçirilməsi | 1. Əmək bazarının xüsusiyyətləri nəzərə alınmaqla işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə işsizlikdən sığorta ödənişini almaq hüququna malik olan şəxslərin əhatə dairəsinin (əmək müqaviləsinə özündən asılı olmayan səbəblərdən xitam verilən digər hallarda) genişləndirilməsi | 31.12.2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi | Rəşad Dayıyev, Cəmaləddin Quliyev |
| | | 2. Sığorta-pensiya sistemində yığım komponentinin tətbiq edilməsi və qeyri-dövlət pensiya fondlarının formalaşdırılması və fəaliyyətini tənzimləyəcək qanunvericilik bazasının yaradılmasına dair təkliflərin və ya layihələrin hazırlanması | 31.12.2022 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi | Elnur Abbasov, Himalay Məmişov |
| **2.1.2** | Qeyri-formal məşğulluğun qarşısının alınmasına dair tədbirlərin həyata keçirilməsi | 1. Qeyri-formal çalışan şəxslərin sosial müdafiə tədbirləri ilə əhatə olunması ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi | 01.04.2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi | Rəşad Dayıyev, Cəmaləddin Quliyev, Orxan Hüseynzadə |
| | | 2. Qeyri-formal məşğulluğa nəzarətin gücləndirilməsi məqsədilə rəqəmsal alətlərdən istifadənin genişləndirilməsi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 30.06.2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi | Rəşad Dayıyev, Cəmaləddin Quliyev, Orxan Hüseynzadə |

| | | | | | |
|---|---|---|---|---|---|
| **2.2. Məşğulluq xidmətlərinin göstərilməsində dövlət məşğulluq orqanlarının fəaliyyətinin gücləndirilməsi** | | | | | |
| **2.2.1** | Peşə təhsili və təliminin səmərəliliyinin artırılması | 1. Yeni peşə təhsil və peşə hazırlıq mərkəzlərinin tikilməsi və şəbəkənin genişlənməsi | 31.12.2022 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Elm və Təhsil Nazirliyi, Maliyyə Nazirliyi | Cəmaləddin Quliyev, Ceyhun Kərəmov |
| | | 2. Vətəndaşların peşə hazırlığına cəlb olunması istiqamətində təşviqat və maarifləndirmə işlərinin aparılması | 31.12.2022 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Elm və Təhsil Nazirliyi | Cəmaləddin Quliyev, Ceyhun Kərəmov |
| **2.2.2** | Özünüməşğulluq proqramının və işsiz şəxslərin aktiv məşğulluq tədbirlərinə cəlb olunması prosesinin təkmilləşdirilməsi | 1. Müstəqil qiymətləndiricilər cəlb edilməklə özünüməşğulluq proqramının səmərəliliyinin təhlil edilməsi | 31.12.2022 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Rəşad Dayıyev, Cəmaləddin Quliyev |
| | | 2. İşsiz və işaxtaran şəxslərə öz təhsil, imkan və bacarıqlarına uyğun daha tez iş tapmalarına, işəgötürənlərə isə daha sürətli və obyektiv seçimlər əsasında tələblərinə uyğun işçi tapmalarına imkan yaratmaq məqsədilə işsiz və işaxtaranların təhsil, peşə və bacarıqları ilə işəgötürənlərin tələblərini qarşılaşdıracaq (matching) avtomatlaşdırılmış sistemin istifadəyə verilməsi | 2022-2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Cəmaləddin Quliyev |
| **2.3. Fərdi əmək mübahisələrinin həlli ilə məşğul olan məhkəmələrin və ya inzibati qurumların fəaliyyətində səmərəliliyin artırılması** | | | | | |
| **2.3.1** | İşçilərin şikayətlərindən irəli gələn fərdi əmək mübahisələrinin həlli sahəsində dövlət xidmətlərinin təşkili | 1. Əmək müqaviləsinin, kollektiv müqavilənin və sazişin şərtlərinin, tərəflərin öhdəliklərinin yerinə yetirilməsi, habelə Əmək Məcəlləsinin və digər normativ hüquqi aktların tətbiqi zamanı işəgötürənlə işçi arasında yaranan fikir ayrılığı ilə bağlı fərdi əmək mübahisələrinin həlli məqsədilə DOST Agentliyində mediasiya xidmətlərinə elektron müraciət imkanlarının yaradılmasının nəzərdən keçirilməsi | 31.12.2022 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Fərid Məmmədov |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 2. Əmək qanunvericiliyinin pozulmasına dair müraciətlərin qəbul edilməsi xidmətinin yaradılması və elektronlaşdırılması | 31.12.2022 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Orxan Hüseynzadə |
| **2.3.2** | İşçilərin hüquqlarının təmin edilməsi istiqamətində müvafiq maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | Əmək və sosial hüquqlar barədə işçilərin və maraqlı tərəflərin maarifləndirilməsi məqsədilə sosial tərəfdaşlarla birlikdə maarifləndirmə və təbliğat üzrə kommunikasiya strategiyasının (tədbirlər planı daxil olmaqla) hazırlanması və icrası | 31.12.2022 (strategiyanın hazırlanması)<br><br>2023 (strategiyanın icrası) | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası | Orxan Hüseynzadə |
| **III. İşçi qüvvəsinin işə götürülməsinin asanlığının təmin edilməsi** | | | | | |
| **3.1. Əmək qanunvericiliyi və dövlət xidmətlərinin praktikada həyata keçirilməsində səmərəliliyin artırılması** | | | | | |
| **3.1.1** | İşçilərin qanunsuz olaraq iş vaxtından artıq işlərə cəlb edilməsinə görə inzibati məsuliyyətin müəyyən edilməsi | Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində işçilərin qanunsuz olaraq iş vaxtından artıq işlərə cəlb edilməsinə görə inzibati məsuliyyətin müəyyən edilməsinə dair təkliflərin hazırlanması və müvafiq layihənin aidiyyəti üzrə təqdim edilməsi | 31.12.2022 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Fuad Heydərov |
| **3.1.2** | Əmək qanunvericiliyinin tələblərinin təmin edilməsi sahəsində fəaliyyətin gücləndirilməsi | Dövlət Əmək Müfəttişliyi Xidmətinin əmək qanunvericiliyinin tələblərinin təmin edilməsi üzrə fəaliyyətinin gücləndirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi | 2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Orxan Hüseynzadə, Fuad Heydərov |
| **3.1.3** | Yerli məşğulluq orqanlarının kadr potensialının gücləndirilməsi və məşğulluq xidmətlərinin təmin edilməsində rəqəmsal alətlərdən istifadənin genişləndirilməsi | 1. Rayonlarda işsiz vətəndaşların elektron avadanlıqlardan istifadə və ona sahiblənmə ilə bağlı problemlərinin olmasını nəzərə alaraq, məşğulluq orqanlarında qeydiyyatdan keçmə mərhələsində karyera məsləhətçiliyi sisteminin qurulması və inkişaf etdirilməsi | 01.04.2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Cəmaləddin Quliyev |
| | | 2. Ölkə miqyasında məşğulluq xidmətlərinin əlçatanlığının və səmərəliliyinin təmin edilməsi məqsədilə məşğulluq xidmətlərinin rəqəmsallaşdırılması və elektronlaşdırılması | 31.12.2022 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Cəmaləddin Quliyev |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 3. Vətəndaşlara göstərilən məşğulluq xidmətlərində operativliyin, şəffaflığın və səmərəliliyin təmin edilməsi məqsədilə Regional Məşğulluq Filiallarında müvafiq islahatların aparılması, seçilmiş kadrların bilik və bacarıqlarının, səriştələrinin artırılması məqsədilə onlara mütəmadi olaraq təlimlərin keçirilməsi | 2022-2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Cəmaləddin Quliyev |